# TOLERANTLIĞIN AZƏRBAYCAN MODELİ



Keçən əsrdən başlayaraq ictimai fikir tarixində ən aktual məsələlərdən biri bəşər cəmiyyətinin min illərdir qarşılaşdığı müxtəlif sivilizasiyalar arasındakı münasibətlər olmuşdur. Təsadüfi deyildir ki, fəlsəfə və geopolitikada, hətta iqtisadiyyat və ədəbiyyatda belə bu mövzu əsas oriyentir kimi götürülməyə başlanmışdır. İctimai həyatın bir çox sahələrində - istər dövlətlərarası, istər xalqlar arasında olsun, cəmiyyətin subyektləri arasında əlaqələrdə müsbət və mənfi məqamları ilə məhz fərqli sivilizasiyaların özünəməxsus xüsusiyyətləri əsas səbəb olaraq görülməkdədir[2,3].

Azərbaycan Respublikası polietnik dövlətdir. Xalq, dövləti təşkil edən etnosdan - azərbaycanlılardan və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar[4,5].

Multukultural düşüncə tərzinin mövcudluğu və fərqliliklərəqarşı dözümlülük hər bir cəmiyyətin beynəlxalq aləməinteqrasiyası vəinkişafı baxımından mühüm əhəmiyyət kəsb edir-.Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasəti nəticəsində ötən əsrin 90-cı illərində Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Müstəqilliyimizin ilk illərində yaranmış xaosdan ölkəni xilas edən və xalqın istəyi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev respublikamızda dini etiqad azadlığının təminatçısı, milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, indiki qloballaşma dövründə dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir[4,5].

Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir. Hazırda Azərbaycanda müsəlman icmaları ilə paralel şəkildə qeydə alınmış qeyri müsəlman dini icmaların fəaliyyətini təmin edən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun icrasını həyata keçirən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mövcuddur. Komitənin əsas vəzifəsi isə ölkədə müxtəlif din və konfessiyalara bərabər imkanlar və şərait yaratmaqdan ibarətdir. Milli azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir və tolerantlıq baxımından örnək bir dövlət kimi özünü təsdiqləyən Azərbaycan hazırda burada yaşayan bütün xalqların, bütün dinlərə etiqad edənlərin azad yaşadığı bir dövlətdir[4,6].

Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür. Onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələrinə malik Azərbaycan xalqı bu fenomeni öz həyat tərzinə çevirməyi bacarıb. Azərbaycanın tolerant dövlət kimi formalaşması, multikultural dəyərlərə böyük önəm verməsi və mövcud sahədə apardığı uğurlu siyasət artıq dünya birliyi tərəfindən uğurlu bir nümunə kimi təsdiqlənib. Xalqımızın fərqləndiyi əsas məqamlardan biri də multikultural dəyərlərin yüksək səviyyədə olmasıdır. Belə ki, Azərbaycanda əsrlər boyu bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşılıb. Müasir Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində ölkəmizdə formalaşan multikultural dəyərlər yeni inkişaf mərhələsinə qədəm qoyaraq geniş vüsət alıb.

Azərbaycanda kultural mədəniyyətin müasir tələblər səviyyəsində inkişafının, ölkədə sabitliyin və tərəqqinin əsas amil olduğunu nəzərə alan ümummilli liderimiz multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini müəyyənləşdirib. Azərbaycan çoxmillətli dövlət olduğu üçün respublikamızda hər bir milli qrupun rahat yaşaması və ölkənin inkişafı üçün güclü hakimiyyət və siyasi iradə tələb edilirdi. Məhz ümummilli lider Heydər Əliyevin siyasi müdrikliyi sayəsində hazırda Azərbaycanda bütün millətlər və din mənsubları rahat şəkildə yaşayır və öz adətənənələrinə, dinlərinə sadiqdirlər.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin alternativi yoxdur: "Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur"[3,1].

Dinlərarası dialoqla bağlı Bakıda keçirilən beynəlxalq konfransların birində iştirak edən Moskvanın və bütün Rusiyanın Patriarxı Kiril öz çıxışında tarixdən misal gətirərək Azərbaycanda bütün dinlərin nümayəndələrinə, eləcə də pravoslavlara qarşı heç vaxt ayrıseçkilik edilmədiyini vurğulayaraq bildirmişdir: "Azərbaycanda pravoslav xristianlar heç vaxt təqib edilməmişdir. Buradakı ruslar heç vaxt həyati təhlükə ilə üzləşib öz evlərini tərk etməmişlər. Tarixi vərəqləyəndə məlum olur ki, əcdadlarımız ümumi təhlükələrə qarşı çiyin-çiyinə vuruşmuşlar. 1905-ci ildə müsəlman vəpravoslav ruhaniləri millətlərarası və dinlərarası ayrı-seçkiliyin qızışdırılmasına qarşı birgə çıxış etmişlər" [1,36].

Hazırda Azərbaycanın tutduğu prinsipial mövqe, dövlət başçısının qətiyyətli siyasəti, azərbaycançılıq ideologiyasının əmin-amanlıq, bərabər imkanlar, həmrəylik kimi dəyərlərə sadiq qalması respublikamızı sivilizasiyaların qarşılıqlı əməkdaşlığını təmin edən unikal bir dövlətə çevirib. Bu isə əminliklə qeyd etməyə əsas verir ki, müasir Azərbaycanda tolerantlıq və multikulturalizm ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının dəyərlər sisteminin tərkib hissəsidir.

## ƏDƏBİYYAT


***1. "Dövlət və Din" ictimai fikir toplusu 2009, noyabr-dekabr, № 6 (14).***

***2. Həbibbəyli Ə. Sivilizasiyalarin kəsişməsində türk dünyasi . - Bakı: Elm və təhsil. - 2011. - 257s.***

***3. HüseynovaV. TolerantlığınAzərbaycanmodeli. - "Azərbaycan" qəzeti. - 2018-ci il.***

***4. Multikulturalizm Azərbaycanın həyat tərzidir (metodik tövsiyələr). - Bakı. - 2016. - 59s.***



***Sevinc MUXTAROVA,***
***M.Füzuli adına***
***Əlyazmalar İnstitutu,***
***biblioqrafiyaşünaslıq şöbəsi***
***kiçik elmi işçi***